**"2008-2012-ci illərdə Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyasının həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 10 yanvar tarixli 2620 nömrəli Sərəncamının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "2008-2012-ci illərdə Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyasının həyata keçirilməsi üzrə Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və digər aidiyyəti dövlət orqanları Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 11 avqust 2008-ci il
№179

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2008-ci il 11 avqust tarixli 179 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**2008-2012-ci illərdə Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyasının həyata keçirilməsi üzrə Tədbirlər Planı**

| **Sıra N-si** | **Tədbirin adı** | **İcraçı orqanlar** | **İcra müddəti (illər üzrə)** |
|---|---|---|---|
| **1** | **2** | **3** | **4** |
| **1. SƏHİYYƏNİN MALİYYƏLƏŞDİRİLMƏSİ SİSTEMİNİN MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ** | | | |
| 1.1. | Səhiyyənin maliyyələşdirilməsi sisteminin mövcud vəziyyətinin monitorinqinin keçirilməsi (ilkin tibbi xidmətin maliyyələşdirilməsi, stasionarların maliyyələşdirilməsi, | Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2008 |

| | | | |
|---|---|---|---|
| | səhiyyənin maddi-texniki bazasının vəziyyəti və sair) | | |
| 1.2. | Mövcud əməkhaqqı sisteminin qiymətləndirilməsi (əməkhaqqını müəyyən edən amillər, orta aylıq əməkhaqqının səviyyəsi, əməkhaqqının əməyin nəticəsinə olan stimula təsiri və sair) | Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2008 |
| 1.3. | Səhiyyənin mövcud maliyyələşdirilmə sistemində olan problemlərin müəyyən edilməsi | Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi | 2008 |
| **2. SƏHİYYƏNİN MALİYYƏLƏŞDİRİLMƏSİNİN İSLAHATI PROSESİNİN NORMATİV HÜQUQİ TƏNZİMLƏNMƏSİ** | | | |
| 2.1. | Azərbaycan Respublikası Prezidentinin "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 30 dekabr tarixli 241 nömrəli və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2007-ci il 7 dekabr tarixli 503-IIIQD nömrəli Qanununun tətbiq edilməsi barədə" 2007-ci il 27 dekabr tarixli 693 nömrəli fərmanlarında nəzərdə tutulan tədbirlərin icrasının yekunlaşdırılması | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi | 2008-2009 |
| 2.2. | Səhiyyənin maliyyələşdirilməsini tənzimləyən qanunvericilik aktlarının monitorinqinin aparılması, onların təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi | 2008-2009 |
| 2.3. | Tibbi xidmət təchizatçılarının (mülkiyyət formasından asılı olmayaraq) seçilməsinə olan tələb və meyarlar, eləcə də tariflərin müəyyənləşdirilməsi, xərclərin əvəzinin ödənilməsi, icbari tibbi sığorta subyektlərinin hüquqlarının tənzimlənməsi məsələlərini əhatə edən, baza zərfinə daxil olan xidmətlərin alınmasını tənzimləyən qaydaların hazırlanması | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi | 2008-2009 |

| | | | |
|---|---|---|---|
| 2.4. | Səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı konsepsiyasının həyata keçirilməsini təmin edən normativ hüquqi aktların layihələrinin hazırlanması | Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Ədliyyə Nazirliyi | 2008-2010 |
| 2.5. | Könüllü tibbi sığortanın gələcək inkişafını və təkmilləşdirilməsini təmin edən normativ sənədlərin hazırlanması | Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi | 2008-2010 |
| **3. QABAQCIL BEYNƏLXALQ TƏCRÜBƏNİN TƏTBİQİ VƏ NAZİRLƏR KABİNETİ YANINDA İCBARI TİBBİ SIĞORTA ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN POTENSİALININ İNKİŞAFI** | | | |
| 3.1. | Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında Maliyyələşdirmə Sazişi (Səhiyyə Sektorunun İslahatları Layihəsi) çərçivəsində Dünya Bankının ekspertlərini cəlb etməklə, bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və Azərbaycan Respublikasında tətbiq edilməsi üçün tədbirlərin görülməsi | Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 2008-2012 |
| 3.2. | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin institusional baxımdan möhkəmləndirilməsi üzrə tədbirlərin görülməsi | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi | 2008-2009 |
| 3.3. | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin büdcə layihəsinin hazırlanması və müvafiq qaydada təsdiq olunması üçün təqdim edilməsi | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Maliyyə Nazirliyi | hər il |
| **4. SƏHİYYƏNİN MALİYYƏLƏŞDİRİLMƏSİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ** | | | |
| 4.1. | Baza zərfinə daxil olan xidmətlərlə təmin etmək üçün tibbi xidmət təchizatçılarının yeni maliyyələşdirmə sisteminin işlənib hazırlanması və pilot rayonlarda sınaqdan keçirilməsi | Səhiyyə Nazirliyi, Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Maliyyə Nazirliyi | 2008 – 2009 |
| 4.2. | Tibbi xidmətlərin dəyərinin qiymətləndirilməsi üzrə tədqiqatların və baza zərfinin pilot rayonlarda sınaqdan keçirilməsinin nəticələri əsasında baza zərfinin | Səhiyyə Nazirliyi, Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Maliyyə Nazirliyi | 2009-2010 |

| | | | |
|---|---|---|---|
| | dəqiqləşdirilmiş strukturunun müəyyən edilməsi | | |
| 4.3. | Pilot rayonlarda əldə edilmiş təcrübə əsasında yeni maliyyələşdirmə üsullarının və baza zərfinə daxil olan xidmətlərin alınması prosedurlarının təkmilləşdirilməsi və tədricən genişləndirilməsi üzrə tədbirlərin görülməsi | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi | 2009 – 2011 |
| 4.4. | Baza zərfinə daxil olmayan xidmətlərin əhali tərəfindən könüllü tibbi sığorta vasitəsilə əldə edilməsi imkanının yaradılması məqsədi ilə sığortaçılarla müvafiq işlərin aparılması | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi | 2009-2012 |
| 4.5. | Növbəti il üçün baza zərfinə daxil olan xidmətlər üzrə təkliflərin hazırlanması | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, | hər il |
| | **5. TƏDRİS VƏ MAARİFLƏNDİRMƏ** | | |
| 5.1. | İcbari tibbi sığorta işinin təşkili sahəsində tibbi xidmət təchizatçılarının (mülkiyyət formasından asılı olmayaraq) rəhbərlərinin hazırlığı üzrə müvafiq proqramların hazırlanması | Səhiyyə Nazirliyi, Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Təhsil Nazirliyi | 2008-2009 |
| 5.2. | Səhiyyə sistemində kadrların ixtisaslarının və peşəkarlığının artırılması işinin müasir tələblər səviyyəsində təşkili | Səhiyyə Nazirliyi | 2008-2012 |
| 5.3. | Tibbi xidmət təchizatçılarının (mülkiyyət formasından asılı olmayaraq) işçiləri üçün müvafiq treninqlərin keçirilməsi | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi | 2008-2012 |
| 5.4. | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin işçiləri üçün müvafiq treninqlərin keçirilməsi | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi | 2008-2012 |
| 5.5. | İcbari tibbi sığorta daxilində yeni maliyyələşdirmə sisteminin tətbiqini təmin edən məlumat bankının formalaşdırılması və səhiyyə üzrə vahid informasiya sisteminin yaradılmasına aid təkliflərin hazırlanması | Səhiyyə Nazirliyi, Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | 2009 - 2010 |

| | | | |
|---|---|---|---|
| 5.6. | Əhalinin səhiyyə sistemində aparılan islahatlar və baza zərfinə daxil olan xidmətlər haqqında maarifləndirilməsi | Səhiyyə Nazirliyi, Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | mütəmadi |
| **6. MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ** | | | |
| 6.1. | Tibbi xidmətlərin keyfiyyətinin, baza zərfinə daxil olan xidmətlərin alınması prosedurlarının və tibbi xidmət təchizatçılarının maliyyələşdirilməsi üsullarının daha da təkmilləşdirilməsi üçün tədbirlərin həyata keçirilməsi və monitorinqlərin aparılması | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi | 2008-2012 |
| 6.2. | Əhalinin tibbi xidmətlərdən istifadə imkanlarında mövcud dəyişikliklərin qiymətləndirilməsi | Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Səhiyyə Nazirliyi | 2012 |